# Bəşəri dəyərlərə sevgi aşılayan Birinci vitse-prezident



***Azərbaycan Respublikasında Birinci vitse-prezidentlik institutunun təsis olunması dövlət idarəçilik sisteminin təkmilləşdirilməsinə xidmət edən mühüm addım olduğu kimi, Mehriban xanım Əliyevanın həmin vəzifəyə təyin olunması da eyni dərəcədə önəmli hadisə idi. Ötən 5 il ərzində Mehriban xanımın rəhbərliyi ilə həyata keçirilən işlər bu önəmin mahiyyətini parlaq şəkildə təcəssüm etdirir. 2016-cı il sentyabrın 26-da Prezidentin təşəbbüsü əsasında respublikamızda növbəti Konstitusiya islahatları ilə bağlı keçirilən referendumun nəticələrinə görə vitse-prezidentlik institutu yaradıldı. Dövlət idarəçilik sistemində yeni institutun yaradılması həm Prezidentin zəruri islahatlar kursunun göstəricisi, həm də Azərbaycanın çağdaş simasının yeni əlaməti idi. Ötən müddətdə əldə olunmuş müsbət nəticələrə əsasən deyə bilərik ki, Birinci vitse-prezidentlik institutu dövlət idarəçiliyinin səmərəliliyini, çevikliyini artırıb.***

Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması ölkənin çağdaş tarixinin önəmli hadisəsidir. Prezidentin 2017-ci il fevralın 21-də imzaladığı sərəncama əsasən bu mühüm vəzifəyə təyin olunan Mehriban xanım Əliyeva respublikamız üçün ilk olan Birinci vitse-prezidentliyin standartlarını da müəyyənləşdirmiş oldu. Bizim üçün yenilik olan Birinci vitse-prezident institutunun Mehriban Əliyeva timsalındakı əyarını, dərəcəsini gördük və qürur duyduq. Mehriban xanımın bu mühüm vəzifəyədək keçdiyi səmərəli ictimai-siyasi yol, humanitar təfəkkürümüzdə xeyirxahlıq institutunun çiçəkləndirilməsindəki müstəsna xidmətləri Birinci vitse-prezident olaraq da onun uğurlarını şərtləndirdi. Heç şübhəsiz, ən önəmli amillərdən biri Mehriban xanımın dövlət başçısının ən sədaqətli silahdaşı, əqidədaşı olması, dövlətçiliyə, ana Vətənə sonsuz məhəbbətlə bağlılığıdır. O, sonsuz xeyirxahlığı, məhəbbəti, sadiqliyi ilə peşəkarlığı elə üzvi surətdə birləşdirə bildi ki, bugün onun fəaliyyətinə verilən ən dürüst qiymətlərdən biri fədakarlıq olaraq ifadə olunur.

Prezident İlham Əliyev I Avropa Oyunları ilə əlaqədar keçirilən mükafatlandırma mərasimindəki çıxışında demişdi: "Mən bu gün Təşkilat Komitəsinin fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Çünki Təşkilat Komitəsinin çox böyük və gərgin fəaliyyəti olmuşdur. Təbii ki, ictimaiyyət tam şəkildə bu fəaliyyətin nədən ibarət olduğunu bilə bilməz. Çünki Təşkilat Komitəsinin tədbirləri mütəmadi qaydada keçirilirdi. Ancaq ictimaiyyətə o qədər də geniş məlumatlar verilmirdi. Hər bir xırda məsələ üzrə bütün işlər ən yüksək səviyyədə görülmüşdü və məhz buna görə oyunların keçirilməsində heç bir problem yaşanmadı.

Təşkilat Komitəsinə rəhbərlik etmiş Mehriban Əliyevanın böyük fəaliyyətini, xüsusilə, yüksək qiymətləndirirəm. O, bu oyunların keçirilməsinə çox böyük töhfə vermişdir. Deyə bilərəm ki, bu oyunların bu səviyyədə keçirilməsinə öz canını qoymuşdur. Mən Təşkilat Komitəsinin tərkibini müəyyən edərkən tam əmin idim ki, bu tərkibdə bu Komitə ən yüksək nəticə göstərə bilər. Çünki burada həm təcrübə, həm peşəkarlıq və ən önəmlisi xalqa, dövlətə sevgi, məhəbbət var idi və var. Bu, ümumiyyətlə, ölkəmizin əldə etdiyi uğurların əsas şərtidir. Bəzən məndən soruşurlar ki, Azərbaycan sürətlə inkişaf edir, – baxmayaraq bölgədə, dünyada, bizim qitədə yaşanan proseslər o qədər də ürəkaçan deyil, – nədir bunun sirri? Bu barədə çox danışmaq olar. Ancaq mən hesab edirəm əsas məsələ ondan ibarətdir ki, biz dövlətimizi, xalqımızı hər şeydən çox sevirik. Bu məhəbbət, bu vətənpərvərlik, bu peşəkarlıq və işimizə sədaqət, əlbəttə, imkan verir ki, Azərbaycan sürətlə inkişaf etsin və bizim gələcəkdə də çox böyük qələbələrimiz olacaqdır".

***

Ümummilli liderin siyasi irsinə sadiqlik və yüksək etimadı doğrultmaq Mehriban xanım Əliyevanın fəaliyyəti haqqında danışarkən ön plana çıxan vacib faktorlardandır. Onun timsalında Azərbaycan qadınının fəal ictimai-siyasi xadim, vətəndaş və peşəkar dövlət adamı obrazı formalaşıb. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyət kredosu nədən ibarətdir? – O, Birinci vitse-prezident kimi ilk çıxışı zamanı demişdi: "Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz kiçik də olsa öz töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır... Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam".

Mehriban xanımın bu sözləri onun həyat kredosunu dəqiq ifadə etməklə yanaşı, ümumən, Vətənə xidmətin kredosunu da müəyyənləşdirmiş olur. Mehriban xanım bütün əməli fəaliyyət sahələrində olduğu kimi, Birinci vitse-prezident olaraq da örnək yaradıb. "Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. Bunlar olmamalıdır." Bu sözlər də Birinci vitse-prezidentə aiddir. Heç təsadüfi deyil ki, o, öz fəaliyyətində zəngin mədəniyyətimizi təbliğ etməklə, müxtəlif istiqamətlərdə yeni layihələr gerçəkləşdirməklə yanaşı, cəmiyyətin həssas təbəqələrinin problemlərini ardıcıl olaraq həll etməyə, ana nəvazişinə ehtiyac duyan uşaqları sevindirməyə nail olur, əfv və amnistiya aktlarının qəbulunda təşəbbüslərlə çıxış edir.

Mehriban xanımın adı ilə bağlı olan, onun rəhbərlik etdiyi hər işdə uğur vardır. Birinci viste-prezidentin sözləri ilə əməlləri bir-birini o qədər tamamlayır ki, hər hansı əlavəyə sadəcə, yer qalmır. Bütün bunlar isə məhz fədakarcasına çalışmaqdan irəli gəlir. Məsuliyyət sevgi ilə qoşa qanad kimi bir olanda, peşəkarlıq meydana çıxır və belə dərin məzmunlu peşəkarlıq varsa, uğur qazanılır. Birmənalı şəkildə deyə bilərik ki, Mehriban xanımın Birinci vitse-prezidentlik fəaliyyəti dövlət idarəçilik sisteminə çağdaşlıq qataraq, şəfqəti və peşəkarlıq amilini daha da qabartdı.

İlk gündən etibarən Birinci vitse-prezidentlik institutu dövlət idarəetməsində vacib funksional siyasi vahid olaraq uğurla fəaliyyət göstərməkdədir. Mehriban xanımın yüksək vəzifədə ilk müşavirəsini məhz məcburi köçkün soydaşlarımızın problemlərinə həsr etməsi də təsadüfi deyildi. Biz Birinci vitse-prezidentin fəaliyyətinin prioritet istiqamətlərini dəqiq müşahidə edə bilirik. Mehriban xanım Əliyeva dövlət idarəetməsində çeviklik və təsirlilik naminə bütün mümkün imkanların səfərbər olunmasını, habelə uğurlu beynəlxalq təcrübə örnəklərindən istifadəni təmin edir. Mehriban xanımın təşəbbüsü ilə ölkə əhalisinin bərabər, əlçatan və keyfiyyətli təhsillə təmin olunması istiqamətində gerçəkləşən çox vacib layihələr – təhsildə demokratik prinsipin yaşadılmasını, çiçəklənməsini təmin edir. Birinci vitse-prezident əhalinin sağlamlığının qorunması adına müxtəlif təşəbbüslərlə ardıcıl olaraq çıxış edir və sosial baxımdan həssas əhali qruplarının problemlərinin həlli istiqamətində təxirəsalınmaz tədbirlər görür.

Azərbaycan xalqının yaratdığı milli mədəniyyət və incəsənət örnəklərinin beynəlxalq aləmdə tanıdılması istiqamətində layihələr ardıcıl xarakterlidir. Ölkəmizdə idman hərəkatının davamlılığının təmini, ekoloji problemlərin həllinə dəstək göstərilməsi, işğaldan azad olunan torpaqların bərpasında humanitar missiyanın həyata keçirilməsi – bütün bunlar Mehriban xanımın adı ilə sıx bağlıdır.

Onun yüksək, çevik idarəçilik təcrübəsinin örnəklərinə – xalqın rəğbətinə səbəb olmuş önəmli fəaliyyət istiqamətlərinə diqqət edək. Mehriban xanım Əliyeva Azərbaycan Mədəniyyət Fondunun, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, 2005-ci ildən 2017-ci ilə qədər Milli Məclisin deputatı, YAP sədrinin birinci müavini olaraq, mükəmməl təşkilatçılıq, eləcə də, çevik və dürüst qərar qəbuletmə qabiliyyəti ilə seçilib. Əgər Mehriban xanımın qərar qəbul etməsini bir cümlə ilə yazası olsaq, "o, alternativlərin ən yaxşısını seçir" yaza bilərik. Mehriban xanımın qərarlılığı bir daha göstərir ki, onun özü və sözü bütövdür.

Cənab Prezidentin dediyi məşhur "Bizim sözümüz imzamız qədər keçərlidir" ifadəsi Birinci vitse-prezidentin həyat və fəaliyyətində öz doğruluğunu hər zaman və danılmaz şəkildə göstərir. Mehriban xanımın titanik fəaliyyəti ölkənin "Yumşaq güc" siyasətinin parlaq təcəssümüdür. Beynəlxalq münasibətlər sistemində Azərbaycanın dostu olan ölkələrin sayının artmasında onun misilsiz xidmətləri var. Mehriban xanım Əliyevanın xeyriyyəçilik fəaliyyətləri çoxdan ölkə hüdudlarını keçib, beynəlxalq siqlət qazanıb. Heydər Əliyev Fondu uzun illərdir, respublikamızın humanitar, mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib və bu fəaliyyət, hər şeydən öncə, Azərbaycanın tanıdılması, həqiqətlərimizin təbliği ilə bağlıdır. Onun qlobal təşəbbüsləri sayəsində mədəniyyətlərarası dialoq Azərbaycanın beynəlxalq brendinə çevrilib. Bilavasitə Birinci vitse-prezidentin təşkilatçılığı ilə Azərbaycanda keçirilmiş beynəlxalq tədbirlər nəticəsində ölkəmiz dünyanın siyasi xəritəsində mədəniyyətlərarası dialoqun önəmli ünvanlarından biri sayılır. Onun Azərbaycanın xarici siyasətindəki vacib missiyası ölkələrarası dostluq münasibətlərinin qurulmasıdır. Birinci vitse-prezident bir sıra ölkələrin birinci xanımları və ya dövlət idarəetməsində yüksək vəzifə tutan xanımları ilə keçirdiyi çoxsaylı görüşlər, əməkdaşlıq etdiyi müxtəlif platformalar xüsusi önəm daşıyır.

***

Mehriban xanımın Azərbaycan Respublikasının və bir sıra xarici ölkələrin yüksək mükafatlarına, orden və medallara layiq görülməsi misilsiz fəaliyyətin yüksək etirafı, dəyərləndirilməsidir. O, respublikamızın ən yüksək dövlət mükafatlarına – "Heydər Əliyev" Ordeninə və Heydər Əliyev Mükafatına layiq görülüb. Beynəlxalq qurumların, xarici ölkələrin yüksək təltiflərini xatırlayaq: BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Qızıl medalı, UNESCO-nun "Qızıl Motsart" medalı, Avropa Olimpiya Komitələrinin Ali Ordeni, Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı, Ümumdünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin mükafatı, qardaş Pakistanın "Hilal-e Pakistan", Macarıstanın "Xidmətlərə görə" Komandor Xaçı, Polşanın "Xidmətlərə görə" Böyük Komandor Xaçı, Fransanın "Şərəf Legionu", Rusiyanın "Dostluq", İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri, Vatikanın IX Piy Ordeninin Böyük Xaçı, Serbiyanın "Sreten" ordenləri və b. Mehriban xanım Rusiya Federasiyasının İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru, Bolqarıstanın Müqəddəs Kiril və Mefodi adına Veliko Tırnovo Universitetinin Fəxri doktorudur.

Heç şübhəsiz, yalnız bir hissəsini vurğuladığımız yüksək təltiflərin hər birinin arxasında bilik, ağıl və iradə, peşəkarlıq və təcrübə, prinsipiallıq və xeyirxahlıq, ən əsası xalqına, dövlətinə, insanlığa, bəşəriyyətə sevgi dayanır! Beynəlxalq ictimaiyyət haqlı olaraq, Azərbaycanın Birinci vitse-prezidentini dünyanın ən nüfuzlu qadın siyasətçilərindən biri kimi səciyyələndirir. Bəli, Mehriban xanım Əliyeva uzun illər içində çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar ilə təltif olunub ancaq onun ən böyük mükafatı Azərbaycan xalqının sevgisidir. Qədirbilən xalqımız yaxşı bilir ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın humanitar missiyası da unudulmazdır. Bu anlamda, Azərbaycanı beynəlxalq aləmə tanıtdırmış mədəni layihələr minnətdarlıqla qeyd olunmalıdır. Milli sərvətimiz olan muğam sənətinin beynəlxalq arenaya çıxarılması məhz Mehriban xanımın təşəbbüsünün nəticəsidir. Azərbaycanın maddi və qeyri-maddi irsinin, xalqımızın yaratmış olduğu ənənə və dəyərlərin dünyada tanıdılması üçün yüzlərlə təqdimat, sərgi və tədbirlər Mehriban xanımın təşəbbüsü, təklifi, iştirakı və rəhbərliyi ilə keçirilib. Belə çoxsaylı tədbirlər nəticəsində beynəlxalq ictimaiyyət ölkəmizi daha yaxından tanımağa, öyrənməyə başlayıb. UNESCO səviyyəsində qeyd edilmiş əlamətdar yubileylər bu işin mühüm tərkib hissəsidir. Mehriban xanım Əliyevanın 2004-cü ilin avqustunda UNESCO-nun, 2006-cı ilin noyabrında isə ISESCO-nun Xoşməramlı səfiri adına layiq görülməsi onun uğurlu fəaliyyətinin, xeyirxah missiyasının nəinki ölkə ictimaiyyəti, eləcə də, beynəlxalq ictimaiyyətin yüksək diqqətini çəkməsini göstərir.

Və nəhayət, Mehriban xanım Əliyevanın Azərbaycanı dünyada mədəniyyət carçısı, sivilizasiyalararası dialoq, mültikulturalizm və tolerantlıq məkanı kimi təqdim etməsi Prezident İlham Əliyevin müzəffər Ali Baş Komandan portretini çox uğurla tamamlayır. Birinci vitse-prezident kimi Mehriban xanım Əliyeva qısa müddətdə özünün peşəkarlığı, zəngin təcrübəsi, böyük humanizmi və hadisələrə genişmiqyaslı baxışı ilə Azərbaycan tarixində qadın hərəkatının yeni bir səhifəsini açıb, idarəetmədə qadınların rolunun artmasına səbəb olub. O, ölkəmizdəki qadın hərəkatı tarixində ilk şəxsiyyətdir ki, maarifçilikdən səhiyyəyə, idmandan mədəniyyətimizin təbliğinə, xeyriyyəçilikdən ətraf mühitin qorunmasına qədər geniş bir fəaliyyət məkanını çox uğurla əhatə edir. Mehriban xanım Əliyeva cənab Prezidentlə birlikdə dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə uğurla fəaliyyət göstərir.

***Qənirə PAŞAYEVA,***
***Milli Məclisin Mədəniyyət komitəsinin sədri***